# “Dəmir yumruq”la açılan “Böyük qayıdış” qapısı

***Bugünlərdə yola saldığımız 2021-ci il tariximizə Qarabağa qayıdışla bağlı hər biri bayrama çevrilən sevindirici tədbirlər silsiləsi ilə yazıldı. Üzümüzə açılan ili Prezident İlham Əliyev “Şuşa” ili elan etdi. Qarabağ zəfərimizin baş sərkərdəsi, Prezident İlham Əliyevin Azərbaycanın mədəniyyət mərkəzi elan etdiyi Şuşaya qısa müddətdə Füzulidən yeni yol çəkildi. Şuşada keçirilən “Xarıbülbül” musiqi festivalı və Vaqif poeziya bayramı ümumxalq təntənəsinə çevrilərək Şuşa ilə, Qarabağla bağlı 30 illik simləmiş ağrılarımıza məlhəm oldu. Qarabağın dünyaya açılan səma qapısı kimi Füzuli Beynəlxalq Hava Limanı da qısa müddətdə tikilib-istifadəyə verildi. Ağdamın, Füzulinin və digər şəhərlərin bərpa layihələrinə də start verildi. Sırası uzun olan bu siyahıda artıq bir çox müasir layihələr yer alıb.***



***ANAR,***
***Azərbaycan Yazıçılar Birliyinin sədri,***
***Xalq yazıçısı***

İlin ən önəmli hadisələrindən biri də Azərbaycanı dünyada tanıdan nəhəng söz adamı, dahi mütəfəkkir Nizaminin 880 illik yubileyinin ölkəmizdə və dünyada təntənə ilə qeyd edilməsi oldu. Bütün bu ürəkaçan fakt və hadisələrin son mərhələdə uğurlarımıza təminat yaratmış Azərbaycan Prezidenti İlham Əliyevin anadan olmasının 60 illiyinin həm ölkəmizdə, həm də beynəlxalq aləmdə yüksək dəyər və qədirbilənliklə qeyd edilməsi ilə tamamlandı.

Xalqımıza, milyonlarla insanımıza, o cümlədən mənə doğma Qarabağımızı azad görmək bəxtiyarlığını yaşadan hörmətli Prezidentimizin 60 yaşının tamam olması onun liderlik fəaliyyətinin əsas cəhətlərini bir daha yada salmaq zərurəti doğurdu. Onun prezidentliyinin 17-ci ilində gün gəldi ki, Ali Baş Komandan kimi Vətən müharibəsinin başında duran İlham Əliyev xalqımızın 30 illik ürək qubarına son qoydu, vüqarla: “Əziz Şuşa, sən azadsan!” – dedi. Daha əvvəl Ermənistanın baş nazirinin dediyi sözlərə: “Qarabağ Ermənistandır və nöqtə” iddiasına Azərbaycan Prezidenti: “Qarabağ Azərbaycandır və nida işarəsi” cavabını vermişdi. Bu nida işarəsi Qarabağ separatçılarının tabutuna çalınan son mismar idi və İlham Əliyev xoş bir ləzzətlə: “Gorbagor oldu status, cəhənnəmə, gora getdi status”– dedi.

Ötən 18 il göstərdi ki, Prezident İlham Əliyev müstəqil Azərbaycanı Heydər Əliyevdən sonra layiqli şəkildə idarə edərək dünyada söz sahibi olan ölkə kimi tanıdıb. O, Rusiya ilə bərabər hörmətə əsaslanan münasibətlər qurdu, Türk dünyasının ən parlaq liderlərindən biri kimi şöhrətləndi və nəhayət, siyasi fəaliyyətinin ən yüksək zirvəsinə ucalaraq 44 günlük zəfərimizlə Azərbaycanımızın da başını ucaltdı.

Biz yazıçılar müdrik düşüncə sahibi, gözəl natiq, ana dilimizin və milli ədəbiyyatımızın inkişafına davamlı töhfələr verən dövlət başçısı İlham Əliyevin bu xidmətlərini onu Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü seçməklə cavablandırdıq. Xatırladım ki, belə bir şərəfə bundan əvvəl yalnız söz adamlarının ən yaxın dostu, ana dilimizin və ədəbiyyatımızın böyük hamisi Heydər Əliyev layiq görülmüşdü. Əlamətdar yubileylə bağlı Yazıçılar Birliyi ilə yanaşı, mən də hörmətli Prezidentimizi ürəkdən təbrik edərək onun Heydər Əliyev yolunun davamçısı olaraq ədəbiyyatımıza, dilimizə qayğısını xüsusi minnətdarlıq hissilə vurğuladım. “Ədəbiyyat” qəzetdə dərc etdirdiyim “Nida işarəsindən Dəmir yumruğa” adlı yazımda cənab Prezidentin müzəffər sərkərdəliyindən, Qarabağ zəfərindən məmnunluqla söz açaraq bildirdim: “Siyasi xadim üçün 60 yaş müdriklik çağıdır, eyni zamanda, hələ çox-çox illər enerjili səmərəli fəaliyyəti üçün münasib vaxtdır”.

Bir ildir ki, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgələrində inanılmaz sürətlə aparılan abadlıq işləri, yollar çəkilməsi, aeroport inşa edilməsi qürur mənbəyimizdir. Dövlətimizin dünyada nüfuzunun günü-gündən yüksəlməsi uğrunda yorulmaz fəaliyyətində Prezidentimizə yeni uğurlar, ölkəmizə yeni qələbələr arzulayıram.

Yeni il münasibətilə 50 milyonluq soydaşlarımızı səmimi təbrik edir, Prezident İlham Əliyevin “Şuşa ili” elan etdiyi 2022-ci ildə xalqımıza əmin-amanlıq və xoş günlər diləyirəm. Qoy 30 illik yurd həsrətimizə son qoymuş Qarabağ zəfərimizin açdığı yol əbədi gediş-gəlişli olsun! İnanırıq ki, “Dəmir yumruq”la açılan “Böyük qayıdış” qapısı qarşıdakı illərdə yurd həsrətlisi soydaşlarımızı hamılıqla doğma ocaqlarına qovuşduracaq.

Xalq qəzeti .- 2022.- 6 yanvar.- S.6.